BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Təbiət elmləri seriyası 2006*

## MÜASİRLİYƏ CAVAB VERƏN MONOQRAFİYA[1]

Müasir dövrdə elmi axtarışlar və elmi dünyagörüşlər qarşısında qoyulan tələblər keçmişdə qazanılan nailiyyətlərə və səhvlərə düzgün qiymət verilməsi ilə yanaşı, elmi sistemləri, elmlə təcrübənin səmərəli əlaqələndirilməsini və bu sahədəki prosesləri obyektiv proqnozlaşdırmağı tələb edir.

Elmlər sisteminin bir çoxunda, xüsusilə sintetik elmlərdə diferensasiya və inteqrasiya getməsi ilə yanaşı, ekologiyalaşmanın baş verməsi onların elmşünaslıq prinsipləri əsasında təhlil edilməsinə ehtiyac yaradır. Bu məsələnin məhz müasir dövrdə həyata keçirilməsi, eyni zamanda ölkəmizin yeni inkişaf yoluna qədəm qoyması, elmi dünyagörüşlərdə qloballaşmaya olan tələblərin artması ilə əlaqədardır.

«Coğrafiya və coğrafi ekologiyanın problemləri» kitabının müəllifi Şövqi Göyçaylı məhz həmin kitabı yazarkən yuxarıda göstərilən mövqeyə əsaslanmışdır.

Müəllifin coğrafi ekologiyanın problemlərinə coğrafiyanın ümumi problemləri ilə birlikdə baxması çox məntiqli olduğu əsərin məzmunundan da aydın görünür. Alim coğrafi ekologiyanın elmi mahiyyətinin, predmetinin formalaşmasına coğrafiyanın bir ana elm kimi nə dərəcədə hazır olduğunu izah edir. Sovet dövründə elmlərin inkişafına və eləcə də coğrafiyanın konstruktivləşdirilməsinə baxmayaraq, bu sahədə bir çox problemlər, çatışmazlıqlar qalmışdır. Xüsusilə elmlərin vaxtilə burjuaziya və sovet elmlərinə ayrılması, elmə sinfi münasibətlərin bəslənilməsi, təbiət-cəmiyyət münasibətlərində istehsal üsulu və münasibətlərinə həlledici yer verilməsi, inkişafda təbii şəraitin roluna çox cüzi yer ayrılması və s. Deyilənlər təbiət-cəmiyyət münasibətlərinin və eləcə də ekoloji proseslərin düzgün qiymətləndirilməsinə maneə yaradırdı.

İki yüz ildən artıq bir dövr ərzində gedən təhlillərə baxmayaraq, vahid coğrafiya ideyasının obyektiv yekunlaşdırılmaması da dünyaya və cəmiyyətə coğrafi baxışların formalaşmasında mənfi təsir göstərmişdir.

Təbiidir ki, deyilənləri coğrafiyanın bir çox sahələrdə, eləcə də ekoloji proseslərin və ətraf mühiti mühafizənin idarəetmədəki roluna da aid etmək olar. Ona görə də müəllif coğrafi mahiyyətlə-

---

[1] Ş.Y.Göyçaylı. Coğrafiya və coğrafi ekologiyanın problemləri. Bakı, «Ulu» nəşr., 2004, 240 s.

rə, dünyanın dərk edilməsində coğrafi baxışların və elminin əhəmiyyətini qiymətləndirərkən klassik və müasir ideyaları, onların müəlliflərinin mövqelərini qiymətləndirir və coğrafiyanın fundamental mahiyyətini açır. Eyni zamanda, kitabda elmi tədqiqatlarda sistemli yanaşma təhlil edilir. Sistemli yanaşmanın bir çox elmi və əməli prosesləri şərh edilir. Maraqlıdır ki, təbii və sosial proseslərin təhlilində coğrafi mahiyyətlərin əhəmiyyəti və inteqrativ mahiyyətləri göstərilir.

Yeni inkişaf mərhələsində elmin problemlərini qiymətləndirərkən müəllif ilk növbədə həmin elmin müasir fəlsəfi-terminoloji mahiyyətlərini açmaqla coğrafi fundamentalizmi, təbii-sosial proseslərin dialektik mahiyyətini, coğrafi ekoloji, coğrafi siyasət və s. məsələlər barədə yeni fikirlər söyləyir. Eyni zamanda, coğrafiya elminin qollarının müasir transformasiyası izah edilməklə iqtisadi-sosial və siyasi coğrafiyanın əhali və şəhərlərin coğrafiyasının vəzifələri təhlil edilir.

Ş.Göyçaylı bazar iqtisadiyyatının coğrafi əsaslarını təhlil etməklə yanaşı, bazarın regionların inkişafında yeri, bazarların rayon əmələgətirmədə, təbii ehtiyatların istifadə edilməsində yeri qiymətləndirilmişdir.

Coğrafiya elminin idarəetmədə və tarazlı inkişafda yerinin təhlil edilməsi xüsusi maraq doğurur. Müəllif coğrafiyanın tarazlı inkişafın tədqiqində xüsusi əhəmiyyət kəsb etdiyini göstərir və bu sahədə rayonlaşdırmaya üstünlük verir. Maraqlıdır ki, müəllif rayonlaşdırmanın özünün təkmilləşdirilməsi barədə yeni ideyalar irəli sürür. Eyni zamanda, regionların tədqiq edilməsinin metodoloji məsələləri ətrafında konseptual ideyalar irəli sürür.

Coğrafi ekologiyanın mahiyyəti, elmlər sistemində yeri və problemləri şərh edilməklə tədqiqat obyekti və predmeti ayırd edilir. Müəllif coğrafi ekologiyanı coğrafiya elmi sistemində yerini qiymətləndirməklə yanaşı, bütün ekoloji proseslərin modelini verir. Eyni zamanda, əsərdə coğrafi ekologiyanın ümumi coğrafiyada yeri verilməklə yanaşı coğrafiyanın ekologiya elmlər sistemində yeri qiymətləndirilir. Maraq doğuran məsələlərdən biri də odur ki, əsərdə yerin sferalarının ekoloji xüsusiyyətləri bir çox elmi məlumatlar əsasında ümumiləşdirilir.

Müəllif ekoloji proseslərə və ətraf mühiti mühafizəyə dair uzun illər apardığı tədqiqatları ümumiləşdirərək olduqca maraqlı nəticələri, eyni zamanda, ətraf mühitin ekoloji və coğrafi mahiyyətlərini şərh edir. Deyilənləri elmi və metodoloji əsas kimi qəbul etməklə, Azərbaycanda ətraf mühitin mühafizəsinin idarə edilməsi ilə əlaqələndirir.

Monoqrafiyanın maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, ekologiya və ətraf mühitə dair elmi, metodoloji məsələlər sahil zonalarının qiymətləndirilməsi və idarə olunması məsələlərində realizə olunur. Xüsusilə sahil zonalarının ərazi-funksional bölgülərinin əməli qiymətləndirilməsində sınaqdan keçirilmişdir. Sahil zo-

nası 30-a qədər təbii şərait və təbii ehtiyatların кomponentlərinə görə bal ilə qiymətləndirilmişdir.

Önəmli haldır кi, monoqrafiyada eкologiya və ətraf mühitin mühafizəsinin təhsil sistemində yeri qiymətləndirilmişdir. Belə yanaşma, yəni elmi axtarışların nəzəri metodoloji əsaslarının təhsil sistemində yerinin verilməsi ənənəvi tədqiqatlara oxşamamasına baxmayaraq bir belə yanaşmaya təbii baxırıq. Belə кi, elmi-nəzəri yanaşmalar təhsilə və təlimə düzgün metodologiya ilə ötürüldüкdə reallıqları qavramaq asan olur, tərк olunmaya şərh edilən vaxt-dan istifadə səmərəli olur. Müəllif elə həmin bölmədə coğrafi qanunauyğunluqların eкoloji mahiyyətini açmaqla tarazlı inкişafın nizamlanmasını irəli sürür.

Müəllif təhsil sistemində ilк dəfə dövri struкturlaşma кonsepsiyasını verməкlə bu ideyanı tədris planlarının tərtibində, tədrisin təşкilində qismən həyata кeçirmişdir. Bununla əlaqədar irəli sürülən ideyalar və təкliflər inandırıcıdır.

Ş.Göyçaylının «Coğrafiya və coğrafi eкologiyanın problemləri» кitabı müasir olmaqla nəinкi coğrafiyaşünaslar, eyni zamanda bir çox elm və idarəetmə sahəsində çalışanlar üçün əhəmiyyətlidir. Belə кitablarda qoyulan problemlər ətrafında elmi müzaкirələrin кeçirilməsi məqsədə müvafiq olar.

**V.M.Babazadə**